| | | | |
|---|---|---|---|
| **Ümumi məlumat** | **Fənnin adı, kodu və kreditlərin sayı** | CHEM305, Neft kimyası, 6 AKTS | |
| | **Departament** | Kimya və Kimya mühəndisliyi | |
| | **Proqram** | Bakalavr | |
| | **Tədris semestri** | 2025-cü tədris ilinin payız semestri | |
| | **Fənni tədris edən müəllim(lər)** | Güllü Əliyeva | |
| | **E-mail** | gull.askar@mail.ru | |
| | **Telefon** | | |
| | **Mühazirə otağı/ cədvəl** | Bakıxanov filialı | |
| | **Məsləhət saatları** | Bazar ertəsi - Cümə<br>9:30-17:30 | |
| **Prerekvizitlər** | | | |
| **Tədris dili** | Azərbaycan dili | | |
| **Fənnin növü (məcburi seçmə)** | Məcburi | | |
| **Dərsliklər və əlavəədəbiyyat** | Əsas dərsliklər<br>1. Məhərrəmov A.M., Bayramov M.R. Neft kimyası və neft-kimyəvi sintez. Bakı, 2006,303 s.<br>2. Rüstəmov M.İ., Abbasov V.M., Məhərrəmov A.M. Əsas üzvi və neft-kimya sintezi. Bakı, 2003, 255 s. | | |
| **Tədris metodları** | **Mühazirə** | | **30** |
| | **Praktiki məşğələlər** | | **30** |
| | **Laboratoriya işləri** | | **0** |
| **Qiymətləndirmə** | **Komponentləri** | **Tarix/son müddət** | **Faiz (%)** |
| | **Aralıq imtahanı** | TBC | 30 |
| | **Quiz** | TBC | 15 |
| | **Fəallıq** | | 5 |
| | **Prezentasiya** | TBC | 10 |
| | **Final imtahanı** | TBC | 40 |
| | **Yekun** | | 100 |

| | |
|---|---|
| **Kursun təsviri** | Neft — əsasən müxtəlif karbohidrogenlərdən və digər üzvi birləşmələrdən ibarət olan təbii yanar mayedir. Onun əsas komponentlərini alkanlar, tsikloalkanlar və aromatik karbohidrogenlər təşkil edir. Tərkibində həmçinin azot, oksigen, kükürd birləşmələri və iz miqdarda metal elementləri (Fe, Ni, Cu, V və s.) də mövcuddur.<br>Neftin kimyəvi tərkibi və fiziki xassələri yatağın dərinliyindən, geoloji şəraitdən və mənşəyindən asılı olaraq dəyişir. Yüngül neftlərdə karbohidrogenlərin miqdarı 90%-dən çox ola bilər, ağır neft və bitumlarda isə bu göstərici əhəmiyyətli dərəcədə azalır.<br>Neft təbii qaz və asfaltla birlikdə petrolitlər sinfinə aiddir. Bioloji və kimyəvi təsirlər nəticəsində neftin tərkibində biodeqradasiya baş verir. Neftin əsas əhəmiyyəti onun enerji daşıyıcısı kimi istifadəsi və neftkimya sənayesində müxtəlif üzvi birləşmələrin sintezində xammal olması ilə bağlıdır. |
| **Kursun məqsədi** | Tələbələrə neftin kimyəvi tərkibi, xassələri və onun neftkimya sənayesində rolu haqqında əsas anlayışları təqdim etmək. |
| **Tədrisin nəticələri** | Bu mövzunu mənimsədikdən sonra tələbə:<br>• Neftin əsas kimyəvi komponentlərini tanıyacaq;<br>• Neftin tərkibindəki maddələrin müxtəlifliyini və onların sənayedə istifadəsini izah edə biləcək;<br>• Neftin emalı və kimyəvi çevrilməsi üçün ilkin əsasları anlayacaq;<br>• Neftin ekologiyaya və enerji istehsalına təsirini qiymətləndirə biləcək. |
| | Aktivlik/Fəallıq<br>Sinif müzakirələrində fəal iştirak etmək, suallar vermək və qrup fəaliyyətlərinə töhfə vermək sizin mürəkkəb anlayışlar haqqında düşüncələrinizi artıra bilər. Bəzi şübhələri aydınlaşdırmağa, fikir mübadiləsi aparmağa, tələbələrdən və müəllimdən öyrənməyə imkan verir.<br><br>Quiz<br>Quiz müəllimlərə tələbələrin əsas anlayışlar və mövzuları başa düşmələrini ölçməyə kömək edən qiymətləndirmə formasıdır. Onlar tələbələrin mühazirələrdə və ya məşğələdə təqdim olunan materialı qavrayıb-qavramadıqları haqqında məlumat əldə etmək üçündür. Quiz yazılı formada keçirilir. Açıq suallar çətinlik dərəcəsindən asılı olaraq 1 -5 ballıq olur. Quiz cəmi 15 bal ilə qiymətləndirilir.<br><br>Prezentasiya<br>Qeyri-üzvi kimya fənnindən təhsil alan tələbələr öyrəndikləri bölmələr üzrə bilik və bacarıqlarını təqdimatlar şəklində nümayiş etdirirlər. Dərs zamanı qrup işi və təqdimatlarla məşğul olmaq tələbələrin gələcək karyeralarına birbaşa ötürülə bilən bacarıqların inkişafına kömək edir. Tələbələr verilmiş mövzu üzrə axtarış aparır və əldə etdikləri məlumatlar əsasında 10-15 dəqiqəlik təqdimatla çıxış edir. Çıxışdan sonra həmin mövzu üzrə suallar verilir. Həm təqdimatı, həm də suallara cavabı yüksək olanda maksimum bal (10) ilə qiymətləndirilir. |

| | |
|---|---|
| | Tələbənin kursu başa vurması 60% və daha artıq bal toplamış tələbə kursu bitirmiş hesab olunur. Əks halda tələbə bu kursu yenidən keçməlidir.<br><br>Pozuntu halları<br>Aralıq və son imtahanlarda mövcud qayadaların pozulması (köçürmə cəhdləri və digər qanunsuz hərəkətlər ) hallarında tələbənin imtahan işi ləğv olunur.<br><br>Dərslərdə davranış<br>Tələbə dərs zamanı müvafiq akademik şəraitin yaradılması üçün mümkün olan hər şeyi etməlidir . İcazəsiz danışığa, lüzumsuz hərəkətlərə və s. qeyri – etik davranışa qətiyyən yol verilmir. Tələbə dərsdə ən fəal şəkildə iştirak etməli , lazım olduqda suallar verməli və müzakirələrdən kənarda qalmamalıdır . |

| **Həftə** | **Fənnin mövzuları** | **Dərslik/Tapşırıqlar** |
|---|---|---|
| 1 | Neft kimyasına və left kimyəvi sintezinə giriş | [1]s.6-20 |
| 2 | Neft və gas haqqında ümumi məlumat | [1]s.24-32 |
| 3 | Neft, gas komponentlərin fiziki və kimyəvi ayrılma üsulları | [1]s.33-43 |
| 4 | Neft və left məhsullarının tərkibinin tədqiqi | [1]s.45-72 |
| 5 | Neftin mənşəyi | [1]s.74-111 |
| 6-7 | Neftin paraffin karbohidrogenləri | [1]s. 113-153 |
| | **Aralıq imtahanı** | |
| 8 | Naften sırası karbohidrogenlər | [1]s.161-170 |
| 9-10 | Neftin aromatik və hibrid sıra birləşmələri | [1]s.194-214 |
| 11 | Neftin heteroatomlu birləşmələri | [1]s.217-258 |
| 12 | Səthi-aktiv maddələr | [1]s.262-274,293-334 |
| 13-14 | Yanacaqlar | [1]s.274-293 |
| | **Final imtahan** | |